# ŞƏHİDLƏR

Siz həyata ölmək üçün doğulduz,
Vaxtsız gül tək həm açıldız, yumulduz.
Taclar altda xəmir kimi yoğrulduz,
Vətən deyib torpaqlara gömüldüz.

Qurumayır anaların göz yaşı,
Yaddan çıxmaz  Xocalının qan-yaşı.
Tarix özü oyadacaq yaddaşı,
Vətən deyib torpaqlara gömüldüz.

Millətimin qanı axdı - sel oldu,
Elim yandı, torpaq yandı - kül oldu.
Qarabağım yaralı bülbül oldu,
Səfıl oldu, girov düşdü  ellərim

Vətən deyib torpaqlara döndülər
İşıq kimi birdən yanıb söndülər
Şəhid olub mələklərə döndülər
Səfil oldu,girov düşdü ellərin

Ağlar anaların göz yaşlarından,
Şəhid oğulların al qanlarından Laçın,
Kəlbəcərim, Şuşa ahımdan
Gül-çiçək bitəcək Qarabağımdan.